Ədəbiyyat qəzeti

№44 15 noyabr 2024-cü il 

## Ələsgər Əlioğlunun şeirləri Albaniya və İtalya mətbuatında

Tanınmış şair Ələsgər Əlioğlunun şeirləri alban və italyan mətbuatında yer alıb. Şeirləri alban dilinə alban şairi və tərcüməçisi Mehmet Rrema, italyan dilinə italyan şairi və tərcüməçisi Marfa Luiza çevirib.






## "Buker" mükafatının 2024-cü il üzrə qalibi elan olunub



Dünyanın nüfuzlu ədəbiyyat mükafatı olan "Buker"in ("Booker Prize") 2024-cü il üzrə qalibi elan olunub.

Mükafatın rəsmi saytında xəbər verildiyi kimi, qalib Londonda keçirilən mükafatlandırma mərasimində açıqlanıb.

Qalib qısa siyahı əsasında seçilib. Mükafatın 2024-cü il üzrə qalibi "Orbital" romanı ilə Samantha Harvey olub.

Qeyd edək ki, qısa siyahıya aşağıdakı 6 müəllif və əsər daxil idi.

1. Percival Everett ("James")
2. Samantha Harvey ("Orbital")
3. Rachel Kushner ("Creation Lake")
4. Anne Michaels ("Held")
5. Yael van der Wouden ("The Safekeep")
6. Charlotte Wood ("Stone Yard Devotional")

Qısa siyahıda əsərləri yer alan altı yazıçıdan beşi qadın idi. Bu, mükafatın 55 illik tarixində bir ilk idi.

Xatırladaq ki, "Buker" mükafatı hər il ingilis dilində yazılan və Böyük Britaniya və İrlandiyada nəşr olunan əsərlərə verilir. Mükafatın məbləği 50 min funt sterlinqdir. Ötən il "Buker"in qalibi "Prophet Song" əsəri ilə Paul Lynch olub.